# Şəhidlər ölməz, Vətən bölünməz: Şəhid Ataməli Musaoğlu



**Azərbaycan Silahlı Qüvvələrinin Baş Kəşfiyyatçısı olan Atəməli Seyidməmməd oğlu Musaoğlu 5 mart 1994-cü ildə Qaradağ rayonunun Lökbatan qəsəbəsində doğulmuşdur. Neftçi Qurban adına 288 sayılı tam orta məktəbdə təhsil almışdır. BDU məzunu olmuşdur. Xəzər universitetində magistr tələbəsi olan Atəməli psixoloq kimi fəaliyyət göstərmişdir.**

2020-ci il oktyabrın 16-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdərənin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Atəməli Musaoğlu oktyabrın 16-da Ağdərə döyüşləri zamanı şəhid olmuşdur. Lökbatan rayonunda Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Atəməli Musaoğlu "Vətən Uğrunda", "Suqovuşanın azad edilməsinə" görə və "Cəsur Döyüşçü" medalları ilə təltif edilmişdir.

**Gül adlı qızı yadigar qalmışdır.**
**Allah rəhmət eləsin!**